# İztirablar tablolarındakı həyacanların sərgisi...

**Neçə-neçə düşündürən, təsirləndirən və tərbiyələndirən müxtəlif mövzulu hekayələri ilə tanış olduğum, Qarabağda baş verən hadisələrin bədii tablolarını sənətkarlıqla hekayələrində cəmləşdirən, insan duyğularının, hiss-həyacanlarının kino lenti görümündə canlandıran yazıçı-publisist Salatın Əhmədlinin "Bir məhbusun gündəliyi" romanı ilə tanışlığım məni bu istedadlı yazıçının "Duyğular milyonçusu"n olduğuna bir daha inandırdı...**

Hər bir əsərin yaranması ilk əvvəl yazıçı beynində cücərir, sonra düşüncə və duyğuların vəhdətiylə bir harmoniya yaradaraq, qələmlə ağ vərəqlərə köçürülür; - Bu prosesin bir adı, forması dünyaya gəlir, "doğulur" kimi deyilə bilər...

Hekayələr kitabları ilə tanış olduğum S.Əhmədlinin Qarabağın taleyi ilə bağlı "Kişilik səngəri", "Uçurulmuş sədlər" romanlarını oxuduğum zaman və düyüm tərzimin, anlama zövqümün, düşüncəmin "Görmə" qabiliyyətinə görə ümumilikdə gəldiyim oxucu rəyim çox müsbət olaraq, hiss-həyacanlı duyğular dəryasında fikir-düşüncə gəmisi lövbər atmış xanım - yazar S.Əhmədliyə, ustad yazara, qələm dostumuza minnətdar oldum.

Bizim çoxumuzun görüb yazmadıqlarımızı, ürəyimizdə itkin düşən, deyə bilmədiklərimiz bir çox hadisə və mətləbləri sənətin dilinə çevirən, fikirlərini bir fədakar yazıçı-vətəndaş kimi qələmə alan Salatın xanımın təfəkkürünün övladları olan əsərləri xalqımızın mənəvi xəzinəsinə çox gözəl bir tövhə kimi qiymətləndirilə bilər.

... "Bir məhbusun gündəliyi" romanından göründüyü kimi bir məhbusun qələmə aldığı gündəlikdən bəhs olunur. Bu məhbus qadındır. Arzusu, sevgisi, ömrü daşa toxunmuş bir qadının dilindən yazılmış roman-elegiyadır. Romanın qəhrəmanı qadın "qatildir". Öldürdüyü isə, əri-balalarının atası, bir məchul rayon prokurorudur: - Hələ məktəbli ikən yoluna çıxdığı, ilk tanışlıqdan qorxduğu, çəkindiyi bir sistem işçisinin-milis leytinantının bir gənc, gözəl qızın həyatını alt-üst etməsindən bəhs olunan bu romanda yazıçı qənaəti belədir ki, prokuror daha çox günahkardır, - qatildir!

Təhsil almaq, jurnalist olmaq istəyi, məhbus xanım Züleyxanın yazdığı gündəlik özünün tale yolu olan ilk və son faciəvi əsəridir. Bu gündəlik - iztirablar toplusu olub, qırılmış insan ümidinin, yaşamağa haqqı olan bir qadının-ananın faciə dastanıdır.

Təbiətcə quru, kobud və qısqanc olan, əsərin əsas "qəhrəmanı" prokuror Sərdardır. Bu prokurorun elədikləri qisasçılıq, aldığı rüşvətlər və məişət pozğunu olması yazıçı dilinin, düşüncə tərzinin, həyata baxışının yaratdığı bir mənfi obraz-bir müasir prokuror tipinin ümumiləşmiş obrazıdır.

Yazılan hər bir əsər, sənət nümunəsi, o vaxt insanlığa həqiqi xidmət edir ki, reallığın bədii görüntüsü olub, həyat həqiqətlərinə söykənsin. Yazıçı bu əsərində eşitdiyi, gördüyü və oxuduğu hadisələri çox böyük bir ustalıqla, inandırıcı detallarla verərək törədilən haqsızlığa ürək ağrısıyla yanaşan və ədalətli hökm verən bir məhkəmə icraçısı - hakim kimi çıxış edir.

Bir gözəl, talesiz qadının gündəliyi əsasında qələmə alınan bu romanın əksər hadisələrində, ər prokuror Sərdarın, evdar qadın Züleyxanın birgə keçirdikləri həyatın epizodları üzərində cərəyan edir.

Bir insan taleyi tapşırılmış, dövləti təmsil edən, məsul vəzifə sahibinin "prokurorun" evdə-ailədə necə qəddar, zalım olduğu, həm də misgin, zavallı bir məxluq olduğu önə çəkilir və bu yerdə yazıçının obrazın halına yanması təəssüfü ər-arvad münasibətlərinin dözülməz həddində özünü göstərir.

İçkiyə qurşanmış, əyyaşlığı həyat tərzi olan, əxlaqsızlığını qəbahət bilməyən bir prokurorun obrazı, mənə ustad yazıçımız Seyran Səxavətin "Qızıl təşt" əsərini xatırlatdı. Bu əsərdəki bircə görüntü ilə rayon icra başçısının xarakteri açılır: - İcra başçısı günahsız bir qadının saçlarını qırxdırır (əsər 1990-cı illərdə səhnəyə qoyulmuşdur). "Bir məhbusun gündəliyi" romanında isə tamam fərqli olaraq Züleyxanın topuğuna düşən saçları - əri "prokuror" Sərdarın içkili ikən günahı üzündən qaz plitəsinin üstündə yanıb tökülür, əvvəlki gözəl və cazibədar görkəmi yox olur...



Bu hadisəyə eyni mühitdə - Azərbaycan məkanında tamam fərqli qütblərdən yanaşmalardır; olanlar hər ikisinin hərəkətləri, hökmləri ilə nifrət doğuran, dövlətçiliyə ləkə gətirən bu günümüzün ağrıları kimi görünür...

Əsər boyu bu əzazil, rüşvətxor və özündən razı prokurorun etdiyi haqsızlığın əvəzini aldığı, bir qadınla içkili vaxtı qəzaya düşməsi və ayağının birini itirməsinin təbii dillə verilməsi, heç nəyin cavabsız qalmadığı anlamına gəlinir.

Sərdarın yerinin bir neçə dəfə başqa-başqa rayonlara dəyişdirilməsi, onun adamlara-vətəndaşlara qarşı kobudluğu, qərəzliyi və qisasçı olması bir neçə epizodla verilir. Bu Sərdarın xarakteridir - qandan gəlmə bir şakəridir. Yazıçı ötəri olsa da Sərdarın atasına çəkdiyini vurğulayır.

Bu yerdə vaxtilə oxuduğum bir yazını xatırlayıram: - Bir gəmi kapitanı gəmidə yaratdığı qayda-qanunu evində də tətbiq edir. "Bir məhbusun gündəliyi" əsərində isə prokuror özünü evində prokuror kimi aparır, "Günahkar" isə evin qadını və uşaqları olduğu son dərəcə inandırıcı bir dillə oxucuya çatdırılır.

Əsərin gedişi-nəqli boyu ("Gündəliyin" təqdimi-oxunuşu) bir ailədəki dramatizm, qarşılaşma dönə-dönə təkrarlandıqca oxucunu əsərə daha çox bağlayır: - Sərdar rayonda işlədiyi vaxt, günlərlə evə dönmür, yoxa çıxır. Lakin qadın onun harada olduğunu balalarının xatirinə dilə gətirmir, qorxur. Bu vaxtı ilə orta məktəbin sonuncu sinfində oxuduğu zaman Sərdarın Züleyxanı maşına basıb apardığı gündən Sərdarın onu ilk dəfə qorxutmasından sonra yaranıb: - Kənddə qaçırılıb qayıtdığı bilinməsin deyə o, Sərdarın nə deyəcəyi ilə hesablaşır. Hətta bu qorxu o qədər şiddətli olur ki, Züleyxa ata-ana və qardaşının sözünə baxmır. İstəmədiyi bir adama könüllü "girov" düşür.

Züleyxa əri Sərdarın ona xəyanətini dəfələrlə görmüşdü. Oğlu Ehtiramla Sərdarın işlədiyi rayona gedəndə, onun qaldığı evdə bir qadınla olmasını, sonra Bakıdakı evlərində qardaşı Bəxtiyarla evinə baş çəkəndə yenə Sərdarın bir qadını "qonaq" gətirməsini və iş yoldaşımdır deməsi, nəhayət Sərdarın rayonda olduğu evə üç kişi - iki qadın qonağa (dostunun qonaqları olması adıyla) evdə süfrə açdırması, yeyib-içəndən sonra zalda, qonaqların yanında gələn rusdilli xanımla divanda qucaqlaşmasını Züleyxa görür (o, həmin hadisədən əvvəl ərinin mətbəxdə üstünə cumduğu anda, özünü qoruyarkən hörüyünü qazda yandırmışdı).

Səbri tükənən, qadınlıq ləyaqəti illər boyu alçaldılan Züleyxa atasının, qardaşının onu boşaması təkidlərinə baxmayaraq, evindən çıxmır, bir ayağı protez olan həyat yoldaşını atmır. Və ən sonda bu simasını çoxdan itirmiş prokuror həyat yoldaşının (illərlə ev-türmə şəraitində saxlayan) yolunu azdığını söyləyir. Elə bu fikir də səbri tükənmiş Züleyxanı özündən çıxardır və anlaşıqsız vəziyyətdə mətbəxdə üstünə cuman ərinin başına tava ilə vurur, mətbəx əşyasıyla onu öldürür...

Psixoloji anların həyacanlı nüansları insan qəlbini təlatümə gətirən epizodların təqdimatında S.Əhmədli çox usta bir yazardır. Əsər boyu neçə-neçə məqamlarda Züleyxanın talesizliyini elə bir ürək ağrısıyla açır ki, ürəyi olan kəs bu vəziyyətə biganə qalmır, qəhərlənir və hadisələrin faciəliliyinə dözməyib, göz yaşı axıdır ki, bütün bunlar da yazıçının bədii qüdrətini təsdiqləyən amillərdəndir.

S.Əhmədli dünücə tərzi, hadisəyə, fakta yanaşma forması orijinaldır, çox çevikdir. O, qələmə aldığı hadisə və epizodları, obrazların düşdüyü vəziyyətləri sadalamır, görün nə olub? - demir! Deməli yazıçı əvvəlcədən obrazının taleyini görür və bu tale ilə özünü "barışdırır". Yaşantılarını elə bir təbii və səmimi dillə verir ki, oxucu əlində kitab olduğunu unudur, lövhəyə, hadisəyə, olanlara baxırmış kimi həmin anları görür, yaşayır. Belə ovqatı yaratmaq, sənətkarın həyatı, insan ağrısını bütün sinirləriylə duymasından irəli gələn məqamlardır.

Əsərin sonluğunda ilk dəfə bir yazıçının türməyə gələrkən Züleyxadan götürdüyü gündəliyin qaytarılması səhnəsi çox ağrılı keçir. Gündəliyi oxuyandan sonra başı bəlalı Züleyxanın əhv olunmasına çalışan və buna nail olan yazıçı Züleyxanın rəisə verdiyi kağızı oxuyarkən sarsılır:

"Sizin mənə qarşı olan diqqət və qayğınız sayəsində mən əfv olunduğumu eşitdim. Bu əfv fərmanının imzalanmasında olan rolunuzu görüb özümün nə qədər böyük bir səhvə yol verdiyimi, son dəfə sizdən bir şeyi xahiş etməməyimin acısını hiss etdim. Bəlkə bu kağızı sizə verməyəcəklər. Bəlkə də verəcəklər. Mən iki gündən sonra övladlarıma qovuşacağam. Amma bu görüş mənə ölüm hökmündən də ağır gəlir. Mən övladlarımın gözünə necə baxacam? Ata qatili kimi dörd divar arasında qalmaq mənə daha asan idi, ancaq bu fərmanı eşidəndə gecələr də yata bilmirəm. Mən əzizlərimin, balalarımın üzünə çıxa biləcək qədər cəsarətli deyiləm. Bunu bacarmaram. Bu, ölümdən də ağırdır. Ona görə ölümü seçirəm. Sizdən xahiş edirəm mənim gündəliyimi uşaqlarıma verin, onlar mənim günahkar olmadığımı bilsinlər, ən azı bu, mənə təsəlli olar".

Daha sonra müəllifin bu sonluğa əlavəsi verilir: - Mən ordan necə çıxdığımı bilmədim... Züleyxa onun gündəliyi əsasında yazılmış kitabın müəllifi oldu. Arzusu jurnalist olmaq idi. Yerinə yetdi. Kitabını ailəsinə göndərdim. Təşəkkürü Ehtiramdan eşitdim. Görüşümə gəldi. Züleyxadan danışa bilmədik. Bircə ondan eşitdiyim bu sözlər oldu: - O balalarını, əzizlərini canından artıq sevən səməndər quşu idi. Gözümüzün önündə hər gün yanırdı, kül olurdu, hər gün də bizim üçün yenidən dirilirdi. Odu kimi külü də bizi yandıracaq...

**Bu kitabın üz qabığı da bir istedadın məhsuludur. Yazıçı mətləbinin açılmasına və tamlığına xidmət edir: Pərişan saçları və (hörükləri yox) sol əli gündəliyinin üstündə -başının altında olan, (gözləri verilməyən) nurlu çöhrəsinin bir hissəsində soyuq təsəlli-ümidin ovqatı, yuxarıda türmənin dəmir barmaqlı pəncərəsi və bütün dərdlərimizdən yuxarıda durmaq üçün, səlahiyyət sahiblərinin vicdanlarına hesabat verməyə səsləyir. Qan rəngində yazılmış "Bir məhbusun gündəliyi" kitabının yuxarısında isə ağ rəngli hərfləriylə ağ sabahlara çağıran imza sahibi Salatın Əhmədliyə qələm-fırçanızla yaratdığınız iztirablar tablolarındakı həyacanlar sərgisinə görə səmimiyyətlə "qələmimiz həmişəyaşıl olsun" deyirik...**


**Nazim Əlioğlu**
**AYB-nin və AJB-nin üzvü**